# "ATALAR ÜÇDƏN DEYİB"

## SƏNƏDLİ POVESTİNİN ƏDƏBİ QƏHRƏMANI VƏ MÜƏLLİFİ

*(Əvvəli ötən saylarımızda)*

Yazıçı ədəbiyyatşünas Ağəddin Mansurzadə istər portiret yazılarında, istərsə də povest və hekayələrində ədəbi qəhrəmanının mənəvi inkişafına, daxili boy artımına xüsusi diqqət göstərir, ana öz övladının qayğısını necə çəkirsə, o da obraza həmin prizmadan yanaşır. Əslində yazıçının uğurunu təmin edən bu diqqət və qayğı istedadla birləşəndə, obrazı oxucuya daha mükəmməl təqdim edir. Müəllif "Atalar üçdən deyib" sənədli povestinin əsas obrazına mühiti təsir edici amil kimi götürür, ədəbi qəhrəmanın hansı mənəvi əsaslar üzərində boy atdığını, böyüdüyünü həyati detallarla aşkarlayır. Biz bu gün Şəddad Cəfərovu həm də müasirimiz olduğuna görə yaxşı tanıyır, onun mənəvi zənginliyini dəyərləndirməyə çalışırıq. Şübhəsiz insan mənəvi zənginliyə zəhməti və istedadı ilə nail ola bilir. Yəqin ki, hər hansı bir şəxsin daxili mühitinin cilalanmasında onun mütaliyəsi xüsusi əhəmiyyət kəsb edir. Şəddad isə ilk gəncliyindən kitablar aləmində olub, kitablar onun həyatının mənasına çevrilib. Kitabların Şəddad Cəfərovun həyatında buraxdığı izi Ağəddin Mansurzadə oxucu diqqətinə ayrıca bir "sirr" kimi təqdim edir: "Onun belə püxdələşməsində, poliqrafiya sahəsində mükəmməl ixtisas qazanmasında daha "kiçik" bir "sirr" də var." İstər-istəməz bu kiçik "sirr"in nədən ibarət olduğunu hər kəs bilmək istəyir. Doğrudur, müəllif bunu kiçik bir sirr hesab edir, amma əslində müəllifin araya gətirdiyi bu kiçik sirr insanın taley yolu üçün xüsusi əhəmiyyət kəsb edən bir məsələdir. Yazıçının qənaəti bütün hallarda insanın mənəvi zənginlik yolunun haradan, nədən keçdiyinə diqqəti yönəldir. Ən yaxşısı Ağəddin Mansurzadənin ədəbi obrazın xatirəsinə əsaslanaraq təqdim etdiyi xüsusi bir məqama biz də diqqət edək: "Qoy elə bu "sirri" Şəddad özü açsın:

-Linotip maşınında çox yazılar yığmışam: şeirlər, hekayələr, povestlər, romanlar. Düzünü deyim ki, onların hamısı yadımda qalmayıb. Daha doğrusu, çoxu unudulub. Maksim Qorkinin "Mənim universitetlərim", "Uşaqlıq" romanları isə heç vaxt yadımdan çıxmaz. Birinci səbəb əlbəttə, aydındır. Çünki bu əsərlər Maksim Qorki kimi böyük bir yazıçı qələminin məhsuludur. İkinci səbəb yəqin ki, mənim tərcümeyi-halımdakı müxtəlif çətinliklərlə bağlıdır. Bunu isə şəksiz deyirəm ki, mən bu əsərlərdən öyrənmişəm, dərs almışam, sabaha inanmağı bacarmışam." Burada Maksim Qorkinin çox dəyərli əsərlərinin adları çəkilir. Hələ yeniyetmə olan Şəddad mətbəə işinin bütün mərhələlərindən keçib. İşin texniki tərəfini yalnız müşahidə ilə öyrənməyib, həm də linotip - mətn yığan maşının arxasında əyləşib. Saatlarla ayrı-ayrı verilən mətnləri yığıb və bu zaman cümlənin quruluşuna diqqət göstərib. Sözün, mətnin intonasiyasının məntiqini ruhundan keçirib. Əlbəttə, onun zəhmətsevərliliyi kollektivində diqqətini cəlb etdiyi üçün ona böyük əsərləri yığmağı da həvalə edirdilər. Şübhəsiz M.Qorkinin çox dəyərli əsərlərini də yığmağı məhz diqqətinə, mətinə məsuliyyətli yanaşmasına görə ona həvalə edirdilər. Beləcə M.Qorki həmdə Şəddad Cəfərovun ilk həyat müəlliminə çevrilirdi. Qorkinin məşhur tirilogiyasının qəhrəmanı inamına və inadına görə, zəhmətsevərliliyinə görə uzun on illiklər boyu uşaqların və gənclərin idealı olub. Şəddad da zamanına görə həmin gənclərdən biri idi. Əlbəttə, bütün bunlar onun mənəvi mühitinin zənginləşməsinə, daxili boy artımına münbit şərait yaradırdı. Sonralar keçmiş SSRİ-nin ayrı-ayrı şəhərlərində məşhur mətbəələrində təcrübə keçərkən, təkcə texniki məsələləri mənimsəmirdi, həm də Qorkinin gənc qəhrəmanının inamını ruhunda daşıyır, öyrəndiklərini həyata tətbiq etmək bacarığı kəsb edir. Və bununla da özünü həyata hazırlayırdı. Ağəddin Mansurzadə gənc Şəddadın öyrənmək istəyini zəhmətdən qorxmamaq inadını məhz bu məqamları yada salmaqla oxucuya onu daha yaxından tanıdır: "Şəddad Cəfərov Moskvanın, Leninqradın və bir sıra digər şəhərlərin mərkəzi mətbəələrində təcrübədə olub, onların yaxşı, dəyərli təkliflərini, öyrənib. Bu sahədə onun əsas "universitetləri" öz işlədiyi mətbəənin müxtəlif aqreqatları, maşınları, qurğuları olub. Çox şeyi özü sərbəst öyrənib. Peşəkar ustaların öyüd-nəsihətlərini tez görüb, tez götürüb. Elə ona görə də mətbəədə olan bütün hər cür texniki yardımı özü göstərib." Beləliklə Şəddad Cəfərov mətbəə sirlərini mənimsəməklə qalmır, ali təhsil almaq haqqında düşünür. Pedoqoji insitutun Riyaziyyat fakültəsini bitirir. Öz işinə elmi cəhətdən yanaşmaq, daim yeniliklər tətbiq etməklə mətbəədə ağır əmək fəaliyyətini yüngülləşdirə bilən təkliflər verir. Təkcə elə bunu demək kifayətdir ki, hələ mətbəə işində olarkən daha üstün dərəcəyə layiq görülməsi üçün qarşıya qoyulan tələbi qısa müddətdə yerinə yetirir. O vaxt rəngli klişe Azərbaycan mətbəələrində problem idi. Demək olar ki, ilk dəfə rəngli klişe hazırlamaq işini Moskvada təcrübə keçərkən öyrənir və Bakıya qayıtdıqdan sonra mətbəədə tətbiq edir. Moskva mətbəələrinin görkəmli mütəxəssisləri Bakıya gələrkən onun elmi erudissiyasını bildiklərindən elmi axtarışlarla məşğul olmağı məsləhət bilirlər. Beləliklə Şəddad Cəfərov Moskva Poliqrafiya inistutunun aspiranturasını müəvfəqiyyətlə bitirir, elmi işini müdafiəyə təqdim edir. Həyəcanlar, gözləmələr, rahatsızlıqlar... belə üzüntülü günlər axırki sona çatır. Yazıçı Ağəddin Mansurzadə müdafiə mərhələsindəki prosesi canlı bir xatirə kimi danışır: "Yaxşı ki, narahatlıq uzun sürmədi, on-on beş dəqiqənin içində elmi şuranın bütün on üç üzvü gəlib çıxdı. Şəddadla birlikdə onun elmi rəhbəri, aponentləri sevinməyə başladılar. Onlar üçün bu müdafiə qədər vacib və əhəmiyyətli idi." Bu iki üç cümlənin içərisində əslində o dövrün çox maraqlı bir tarixçisi var. müdafiə böyük futbol gününə düşdüyündən vacib şəxslərin gəlməmək etimalı olub, ancaq Azərbaycanlı tədqiqatçının ləyaqətinə görə, müdafiə şurasının üzvüləri kənarda qala bilmirlər. Hər kəs öz yerini vaxtında tutur. Əslində bu iki, üç cümlə ilə Ağəddin Mansurzadə cavan Azərbaycanlı tədqiqatçının Moskvanın görkəmli alimlərinin arasındakı mövqeyini göstərir. Onun necə hörmət və nüfuz sahibi olmağına diqqəti yönəldir. Və bundan sonra həm də öz münasibətini əlavə edir. Şəddad kimi adamların mənəvi mühitində əsas olanı - yəni, özünü yox, təmsil etdiyi Vətəni Azərbaycanın, onun elmi işini təqdir edən görkəmli alimlərin inamını müdafiə etdiyini qabardır. Beləliklə, Şəddad Cəfərov görkəmli alimlər qarşısında elmi mövqeyini səlist, aydın mühakimə və dərin məntiqlə şərhə başlayır. Çıxışını elə qurur ki, verilən vaxt ərzində elmi işin mahiyyətini müdafiə şurasının üzvlərinə, dəvət olunan qonaqlara çatdıra bilir. Əsərin müəllifi müdafiə edənin - yəni, Şəddad Cəfərovun bu qədər hazırlıqla müdafiə şurasının önünə çıxaraq yüksək səviyyədə çıxış etməsindən qürur duyduğunu gizlətmir: "Etiraf edirəm ki, mən bu vaxtadək çoxlu müdafiələrdə iştirak etmişdim, ancaq belə müdafiə görməmişdim. O, elə bil təkcə mövzusunu, özünü müdafiə etmirdi, eyni zamanda elmi rəhbərini, apponentlərini, ona qayğı göstərən insitutun bütün müəllim, professor kollektivini, boya-başa çatdığı torpağını, işlədiyi müəssisənin adını, ünvanını, markasını müdafiə edir və bu zəhmət, bu əziyyət üçün döşünü irəli verməşdi. Şəddadın elmi işilə əlaqədar Vətənimizin on beşə qədər müxtəlif idarələrindən elm və təhsil ocaqlarından göndərilən rəy məktublarına, ayrı-ayrı müəssisələrdən, nazirliklərdən gələn mütəxəssislərin yoldaşların arzu, təklif və suallarına verdiyi cavablar da onun tam hazırlıqlı, yaxşı məlumatlı olduğundan xəbər verirdi." Həqiqətən Vətəndən uzaqda Vətən elmini Azərbaycanlı tədqiqatçının timsalında elmə münasibəti yüksək meyarlarla təqdim edə bilmək tədqiqatçıdan yüksək mənəvi hazırlıq tələb edir. Həyat göstərir ki, zəhmətdən qorxmayanda, məqsədə doğru ardıcıl və inadla irəliləmək hər kəsi məramına çatdıra bilir.

Ağəddin Mansurzadə təkcə yazıçı deyildi, o həmdə görkəmli publisist və jurnalist idi. Yazdığı əsərini də əsasən yazıçı təxəyyülü ilə deyil, publisist obyektivliyi, jurnalist məntiqi ilə yazmağı qərara aldığından faktlara xüsusi məsuliyyətlə yanaşır, o yaxşı bilirdi ki, bir vaxt gələcək onun istinad elədiyi faktlar bir insanın tarixi taleyindən yan keçməyəcək. Həmin faktlar daha dərin mətləmlərdən xəbər verəcək. Görünür elə bu səbəbdən Ağəddin Mansurzadə fürsəti qaçırmır. Müdafiə şurasının üzvləri ilə ünsiyyət qurur, müdafiə ilə bağlı məsul şəxslərə rəylərini bildirməsi üçün müraciət edir: "Fürsətdən istifadə edib eloğlumuzun işi barədə müsbət fikirdə olan iki hörmətli yoldaşdan kiçik müsahibə götürdüm. İlk müsahibim Plexanov adına Xalq Təsərrüfatı İnsitutunun professoru Novak Vasili Andreyeviçdir: - Doğrusunu deyim ki, bugünkü müdafiəyə gəlmək fikrində deyildim. Həm əhvalım pis idi, həm də bundan vacib bir məclisdə iştirak etməli idim. Məni bu gün bu müdafiəyə gətirən, daha doğrusu gəlməyə məcbur edən Şəddad Cəfərovun dissertasiya işindən aldığım yüksək təəssürat olmuşdur. İstəyirdim ki, bu cavan adamla üzbəüz oturam, əyani şəkildə onun nəyə qadir olduğunu görəm. Sözüm yoxdur, hər şey göz qabağındadır. İnanıram ki, yoldaş Cəfərovun dissertasiya işi təkcə Azərbaycan poliqrafiya sənəti üçün yox, ümumiyyətlə bütün poliqrafiyamız üçün çox xeyirli və dəyərli olacaqdır. Qəlbən şadam ki, dəstəmizə daha bir istedad sahibi də daxil oldu." Birinci müsahibədən çıxarılan nəticə budur ki, Şəddad Cəfərovun tədqiqatı o vaxtkı Sovet məkanı üçün, bütövlükdə poliqrafiya sənayesi üçün böyük əhəmiyyət daşıyacaq. Professor Novart tədqiqatçını istedadına görə təqdir edir, dəyərli iş yazdığına görə təqdir edir. Həm də onun düşüncələrində bir səmimiyyət də hiss olunur. Hiss olunur ki, o, tədqiqatçının şəxsiyyətinə hörmət edir, mənəvi mühitindən razıdır.

İkinci müsahibə də maraq doğurur: "Anişkina Klavdiya Alekseyevna, professor, Moskva Poliqrafiya İnsitutunun dekanı: -Mənə elə gəlir ki, bu gün həm də Şəddad Cəfərovun elmi rəhbəri Elya Vladimirovna Nikolskayanın bayramıdır. Çünki bu gün Elya Vladimirovnanın onuncu dissertantı müəffəqiyyətlə dissertasiya müdafiə etdi. Bu işin əlamətdarlığı ondan ibarətdir ki, Şəddad Cəfərov insitutumuza ilk qiyabi dissertantdır ki, elmi işi üç ildə başa çatdırdı. Belə əziz gündə Şəddata bir tövsiyyəm var: qoy o bütün səy və bacarığını poliqrafiya sahəsinə sərf etsin, bu sahədə yeni axtarışlar aparsın. Bunu ona görə deyirəm ki, əksər yoldaşlarımız müdafiədən sonra ali məktəblərə keçir və nəticədə ona əmək sərf edən müəssisə heç nə qazanmır, əslində itirir." Bu müsahibədə də maraqlı məlumatlar var. professor Anişkina istəyir ki, Şəddad Cəfərov istehsalatı tərk etməsin, elmi naliyyətlərini istehsalata tətbiq etsin. Ona görə də professor Anişkina arzulayır ki, Şəddad Cəfərov elmi axtarışlarını davam etdirməklə, poliqrafiya sənayesinə yeni töhfələr versin.

O vaxtdan çox keçib bu əsərin - "Atalar üçdən deyib" sənədli povestinin birinci hissəsinin yazılmasından ötən 20 il ərzində həyatımız çox dəyişib, şübhəsiz poliqrafiya sənayemiz də inkişaf edib. Müstəqilliyin verdiyi imkanlar insanların həyatını təkcə maddi baxımdan dəyişməyib, həm də müstəqillik dövrün Azərbaycan vətəndaşı çox dəyişib. Elə əsərin qəhrəmanı da yaş üzərinə yaş gətirib, amma onun 20 il əvvəlki düşüncələri bu gündə öz dəyərini itirmir. Həyata, cəmiyyətə, işə münasibət baxımından çox faydalıdır. Həmin 20-25 il bundan əvvəl Şəddad müəllimin düşüncələrini Ağəddin Mansurzadə povestinin birinci hissəsində yazıya gətirə bilmişdir: "Desəm ki, filan-filan işlər görmüşəm, birdən yaxşı çıxmaz. Amma nə edə bilərəm, madam ki, soruşmusuz, demək cavab da verməliyəm. Gördüyünüz bu mətbəə 1930-cu ildən fəaliyyət göstərir. Bina elə həmin binadır, nə kiçilib, nə də böyüyüb. Gücü isə xeyli artıb. Məsələn, təkcə son beş il ərzində rənglərin sayına görə qüvvəmiz otuz milyon çap vərəqi həcmində artmışdır. Bu isə şübhəsiz ki, yeni texnikanın tətbiqi sahəsində əldə edilib. Uzun illərdi ki, istehsal edilmiş kitablar bir prosesdən digərinə əl əməyi vasitəsi ilə aparılırdı. Mənim təklifimlə xüsusi mexanikləşdirilmiş şəbəkələr quraşdırıldı və kitablar sexdən, aqreqatdan digərinə həmin xətlərlə daşınmağa başlandı." Şəddad müəllim kitab çapı ilə bağlı o vaxtdan bəri bir neçə əsər yazıb. Kitab sənayemizin inkişafına elmi və təcrübi töhfələrini verib.

Zaman göstərdi ki, öz işinə münasibətdə sağlam mənəvi mövqe şəxsiyyətin təbiətini cəmiyyətə daha dəqiq, daha düzgün təqdim edir. İndi Şəddad müəllimin həyatının həmin günlərə işıq tutan düşüncələri müasir nəsil üçün dəyərli mənəvi irsdir: "Mən iqtisadçıyam. Hər bir təşkilat üçün dövlət planı qanun olmaqla bərabər, həm də realdır. Madam ki, plan realdır, deməli onu yerinə yetirmək vacibdir. Siz deyən heç də elə böyük inqilab etməmişəm. Düzünü desəm səhlənkarlığa, saxtakarlığa, arxayınçılığa da yol verməmişəm. Maşınlar yenə həmin maşınlardır, adamlar da həmçinin. Dəyişən təkcə bir iş üsulu olub, bir də tapşırılan vəzifəyə məsuliyyət, kadrlara düzgün münasibət. Hər kəs öz yerində olsa, hər kəs qulluq etdiyi maşının, mexanizmin "dilini" bilsə və işlədiyi aqreqat saz olsa, inanmıram belə şəraitdə dövlət planı yerinə yetirilməsin." Bu da işə məsuliyyətli münasibətin təzahürü. Hər hansı bir şəxsin kimliyini bilmək istəyirsənsə, onun işini gör insanlara münasibətini gör. Onun yaşam düsturunu öyrən. bu zaman əsil həqiqəti daha yaxşı görə bilərsən.

"Atalar üçdən deyib" sənədli povest trilogiyanın birinci hissəsi sona çatır. Biz burada Şəddad Cəfərovu təkcə mütəxəssis kimi yox, həm də şəxsiyyət kimi, mənən zəngin insan kimi görürük.

Mənən zəngin insanların həyatı həmişə maraqlıdır.

*(Davamı var)*